Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

REGİON

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

№ 26 (1154) 9 fevral - 10 fevral 2016-cı il

# FÜZULİ - GÖZƏL DİYAR...

**Azərbaycanın bütün bölgələri və bütün əyalətləri öz gözəlliyi və füsunkarlığı ilə göz oxşayır. Bu gözəlliklərin içərisində Qarabağın bir parçası olan Füzulinin də öz əsrarəngiz incəlikləri, gözəllikləri və baxımlı yerləri var. Rayon işğal olunmamışdan öncə kimin yolu bu torpağa, bu yurda düşsəydi məəttəl qalardı. Xüsusən də yaz vaxtı güllər çiçək açanda, çəmənlər, otlar torpaqdan baş qaldıranda Füzuli şəhəri ilə Horadiz kəndinin arasındakı dağların yamaclarında lalələrdən sanki xalça toxunardı. Göz işlədikcə rəngarəng çalarları özünə çəkən bu məqamları onu görənlər uzun müddət yaddan çıxara bilməzdilər. Elə ki yaz gəldi, dərələri, təpələri, yamacları bu cür güllər, çiçəklər öz ağuşuna alırdı. Sanki bura bir cənnətə və gözəl bir məkana bənzəyirdi.**

**"Azərbaycanın hər bir şəhəri, hər bir kəndi bizim üçün əzizdir, doğmadır. Elə bir rayon yoxdur ki, mən orada olmayım. Dəfələrlə olmuşam və bundan sonra da olacağam. Hər bir rayon üzrə proqramlar var, vəsait ayrılır".**

***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyev***

### İŞĞAL ANLARI

Füzuli rayonu 1993-cü ilin avqustun 23-də erməni işğalçıları tərəfindən zəbt edildi. Rayon mərkəzindən tutmuş sonuncu işğal olunmuş Böyük Bəhmənli kəndinə qədər bütün torpaqlarımız ermənilərin nəzarəti altına keçdi. Düzdür, o döyüşlərdə, o ağır anlarda torpağı müdafiə etmək üçün yüzlərlə insan sinəsini güllənin qabağına verdi. Yəni vətən, xalq uğrunda şəhid gedən oğullar bu torpağı öz qanları ilə suvardılar. Təsadüfi deyil ki, Qarabağ uğrunda gedən döyüşlərdə Füzulidən 6 Milli Qəhrəman olub. Hələ biz digər döyüşüb və qəhrəmancasına həlak olanları, şəhidlərimizi demirik. Çünki bunlar son nəfəslərinə qədər o torpağı, o vətəni qorumağa çalışdılar. Gəlin onunla razılaşaq ki, vətən uğrunda həmişə onu sevənlər və onu anaları qədər istəyənlər birinci özlərini döyüşə atırlar. Və onlar da heç vaxt bu vətənin, bu xalqın yadından çıxmırlar.



### 1994-CÜ İLİN YANVAR AYI

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə 1994-cü ilin yanvarın əvvəllərində Horadiz qəsəbəsinin və 22 kəndin işğaldan azad olması planı hazırlandı. Və bu planı Azərbaycanın Milli Ordusu, Daxili qoşunları və polisi birgə həyata keçirdilər. Bir neçə günün içərisində Horadiz şəhəri də daxil olmaqla 22 kənd işğaldan azad olundu. Araz çayının üzərindəki körpüdə erməni bayrağı endirildi və orda Azərbaycan bayrağı yüksəkliyə qaldırıldı. O bayrağı yüksəkliyə qaldıran Azərbaycan oğullarına "eşq olsun" deyirik. Çünki o bayrağı qaldırana qədər, o yerləri yağılardan azad edənə kimi neçə-neçə vətən oğlu şəhid oldu, amma onların silahdaşları arzularını ürəklərdə qoymadı və erməni işğalçılarını məhv edərək işğal altında olan ərazilərimizi azad elədilər. Azğınlaşmış ermənilər işğal etdikləri Horadiz şəhərini elə yandırmışdılar ki, orda bir yaşayış binası belə qalmamışdı. Üstəlik də Kərimbəyli, Babi, Araytlı, Şükürbəyli, Yağlıvənd, Böyük Bəhmənli kəndlərində də ermənilər məktəbləri, xəstəxanaları, yaşayış binalarını yandırmışdılar. Və bütün bunlar onu göstərirdi ki, erməni vəhşiliyinin həddi-hüdudu yoxdur.

### ULU ÖNDƏRİN QAYĞISI ÖZÜNÜ GÖSTƏRDİ

Az bir müddətdə Füzulinin işğaldan azad olunmuş Horadiz qəsəbəsi və 22 yaşayış məntəqəsi yenidən tikildi, bərpa edildi və quruldu. Bunun üçün isə Ulu Öndər Heydər Əliyev özü bir neçə dəfə Füzuliyə səfər etdi, mövcud problemlərin həllinə lazımi köməklik göstərdi. Bu məqsədlə rayonun işğaldan azad olunmuş qəsəbəsi və kəndləri üçün xeyli vəsait ayrıldı. Və bu vəsait hesabına



az bir müddətdə yandırılmış, dağıdılmış kəndlər, xəstəxanalar, yaşayış binaları yenidən bərpa edildi. Əlbəttə, ölkə başçısının bu cür qayğısı, diqqəti sayəsində Füzulinin işğaldan azad olunmuş kəndlərində misli görünməmiş abadlıq və quruculuq işləri həyata keçirilməyə başlandı. İlk növbədə məktəblər, xəstəxanalar bərpa edildi və əhalinin istifadəsinə verildi. Və bununla paralel olaraq rayonun kəndlərində yandırılmış yaşayış binaları da əsaslı surətdə təmir edilməyə başlandı. Əhali gördü ki, dövlət, hökumət tərəfindən onlara çox böyük diqqət və qayğı göstərilir. Və onlar da zaman-zaman dədə-baba torpaqlarına qayıtdılar. Xarabazarlığa çevrilmiş, dağıdılmış kəndlər öz görkəmini dəyişdi. Və həyat yavaş-yavaş öz axarına düşdü.

### RAYONA DİQQƏT BİR QƏDƏR DƏ ARTIRILDI

**İlham Əliyevin prezidentliyi dövründə Füzuli rayonuna qayğı və diqqət artmaqda davam etdi. Belə ki, cənab prezident özü dəfələrlə rayona səfər etdi. Səfər müddətində cənab prezident rayonda bir çox sosial obyektlərin, xəstəxanaların, məktəblərin açılışında iştirak etdi və öz çıxışında da bildirdi ki, Füzuli cəbhə bölgəsi olduğu üçün həmişə bu region diqqət mərkəzində saxlanılacaq, onun sosial-iqtisadi inkişafına böyük köməklik göstəriləcəkdir. Həqiqətən də prezident İlham Əliyevin hər dəfə Füzuliyə səfər etməsi xalq tərəfindən toy-bayram kimi qarşılanırdı. Çünki Füzuli camaatı yaxşı bilir ki, ölkə prezidenti onlara necə böyük qayğı göstərir. Füzulilələr cəbhə bölgəsində rahat yaşayıb və işləməklə sabaha böyük ümidlə baxıblar. Ən azından ona görə ki, onlar hər an, hər dəqiqə öz üzərlərində ölkə prezidentinin, dövlətin qayğısını görüblər. Elə buna görə də bu gün Füzulinin işğaldan azad olunmuş yaşayış məntəqələrində yetmiş mindən çox əhali məskunlaşıb.**

(ardı var)

**Faiq QİSMƏTOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ